# Tərbiyə və təlim kateqoriyalarına yeni baxış

Pedaqoji proses kateqoriyasının tərkibində nəzərdən keçirilən kateqoriyalardan biri tərbiyə kateqoriyasıdır. Tərbiyə insan cəmiyyəti yarandığı gündən mövcud olmuş və ayrı-ayrı ictimai-iqtisadi formasiyalardan mühütün təsirinə müvafiq olaraq inkişaf etmiş, formalaşmış və təkmilləşmişdir. Tərbiyənin yaranıb təşəkkül tapması ilk dəyərli fikirlərə etkirlərə etnopedaqoji materiallarda rast gəlirik. Bu materiallardakı pedaqoji fikri bir yerə yığaraq onu küll halına salan Azərbaycan Xalq Pedaqogikasının banisi və təbliğatçısı professor Əliheydər Həşimov olmuşdur. O, yazır ki, "xalq pedaqogikasının bizə çatan yadigarları, materialları müdriklik dəfinəsidir. Onlar yığcamlığı, siqləti, obrazlılığı, dərin ictimai-pedaqoji məzmunu, ədəbi-tarixi koloriti, əxlaqi etik tərbiyəsi, nəsihətamiz ruhu ilə xalqın kamal dünyasıdır. Xalq pedaqogiqası materiallarının hər birində həyatın, tərbiyənin bu və ya digər məsələsi üzrə zəhmətkeş kütlələrin real qənaəti, inamı, etiqad və təsəvvürü əks olunmuşdur. Buna görə də həmin materiallar xalqını, insanı islah və tərbiyə yoluna çağırmışdır" (Bax, Ə.Həşimov, F.Sadıxov. Azərbaycan xalq pedaqogikası, Bakı, Ünsiyyət, 2000, səh. 10). Əsrlər və uzun illər boyu inkişaf edən, formalaşan tərbiyə ənənəvi, nəhayət tərbiyə nəzəriyyəsi kimi təkmilləşərək konkret elm sahəsinə çevrilmişdir. Lakin konkret elm sahəsinə çevrilən tərbiyə nəzəriyyəsinə pedaqoji konteksdə yazılmış elmi əsərlərdə, o cümlədən monoqrafiyalarda, dissertasiyalarda, xüsusilə dərslik və dərs vəsaitlərində xeyli fikir müxtəlifliyi mövcuddur. Yuxarıda adı çəkilən elmi praktik konfransda bu məsələ də əsas müzakirə obyektinə çevrilmişdir. Əsas məruzəçi Fərahim Sadıxov tərbiyə nəzəriyyəsi ilə məşğul olan alimlərin tərbiyəyə verdikləri təriflərindəki qeyri müəyyənliklərin, ziddiyyət və müxtəlifliyin aradan qaldırılmasını diqqətə çatdırdı və bu dərsliklərdən istifadə edən müəllim və tələbələri çaşdıran hökm şəklində ifadə edilən bu təriflərin təkmilləşdirilməsini vurğuladı. Məruzəçinin bu barədə dediklərindən bəzi fraqmentlərə diqqət yetirsək fikrimizi daha aydın şəkildə aydınlaşdırmış olaraq:

"Bəs, bu gün elmi pedaqogikada tərbiyə nəzəriyyəmizin qoyuluşu necədir?"

***Pedaqoji proses tərbiyə təlim təhsil və psixoloji inkişaf pedaqoji elmin başlıca kateqoriyaları hesab olunur. Sadalanan kateqoriyaların həmişə pedaqoji proses kateqoriyasının tərkibində nəzərdən keçirilir.***

Açığını etiraf etmək lazımdır ki, problemin elmi-pedaqoji ədəbiyyatda qoyuluşu heç də ürəkaçan deyil. Bunun üçün tərbiyəyə verilən bir neçə tərifi nəzərdən keçirmək kifayətdir.

"Komunist tərbiyəsi uşağların fiziki və zehni qabiliyyətlərini məqsədəyönəlmiş, planlı və mütəşəkkil bir surətdə inkişaf etdirmək, onları bilik, bacarıq və vərdişlərlə silahlandırmaq, onlarda elmi-materialist dünyagörüşü təşəkkül etdirmək və komunist əxlaqi sifətləri inkişaf etdirməkdən ibarətdir (Bax. Pedaqogika, APİ-nin nəşri, 1958, səh. 9 )"

Həmin tərif APİ tərəfindən 1973-cü ildə nəşr olunmuş "Redaqogikaya giriş" adlı dərs vəsaitində təkrar olunmuşdur (Bax, səh.38)

1964-cü ildə Azərbaycan Dövlət Tədris-Pedaqoji Ədəbiyyatı Nəşriyyatı tərəfindən nəşr edilən "Pedaqogika" dərsliyinin 5-ci səhifəsində oxuyuruq: "Geniş mənada tərbiyə-gənc nəslin fiziki və əqli qabiliyyətini inkişaf etdirmək, uşaqları bilik, bacarıq və vərdişlərlə silahlandırmaq və müəyyən dünyagörüşünə, əxlaqi sifətlərə yiyələndirməkdən ötrü onlara məqsədə yönəldilmiş, planı və mütəşəkkil surətdə təsir göstərməkdir" (Bax, səh. 6). Həmin dərsliyin 253-cü səhifəsindən "Tərbiyə nəzəriyyəsi" adlanan bölməsinin birinci abzasını nəzərdən keçirək: "Pedaqogikanın əsas anlayışları olan tərbiyə, təhsil və təlimin mənası aydınlaşdırılarkən tərbiyənin iki mənada-geniş



mənada tərbiyə məfhumuna daxil olan təhsil, təlimdən, təlim nəzəriyyəsindən bəhs edildi". Müəlliflər tərbiyəyə dar mənada "Tərbiyə uşağa edilən bütün məqsədəuyğun və mütəşəkkil təsirlər deməkdir" kimi tərif vermiş, geniş mənada isə başqa bir tərif vermişlər. Başqa bir bölmədə isə təhsilə də, təlimə də eyni mənada yanaşmışlar.

"Pedaqogikadan mühazirə konspektləri" adlanan dərs vəsaitində velə bir təriflə üzləşirik: "Tərbiyə tərbiyəçi ilə tərbiyə olunanlar arasında elə qarşılıqlı fəaliyyət prosesidir ki, bu prsessdə tərbiyə olunanların həyata düzgün münasibətləri formalaşır, adətlər təşəkkül tapır" (Bax, Pedaqogika, Bakı, Təbib, 1994, səh. 6).

Tərbiyə dedikdə bu və ya digər keyfiyyəti inkişaf etdirmək, davranış təcrübəsini formalaşdırmaq üçün tərbiyəçinin tərbiyə olunan mütəşəkkil, məqsədyönlü, planlı, sistemli və fasiləsiz təsir göstərməsi prosesi başa düşülür (Bax, Pedaqogika, Renesaus, 2000, səh. 79).

"Tərbiyə prosesi şəxsiyyətin inkişafı və formalaşdırılması prosesidir" (Bax: Pedaqogika, Bakı, Çaşoğlu, 2000, səh. 312).

Bu sonuncu üç tərif isə Ə.Həşimov, F.Sadıqov, A.Abbasov, H.Əlizadə, Ə.Paşayev və F.Rüstəmov tərəfindən hazırlanmış "Pedaqogika" adlı dərs vəsaitlərindən götürülmüşdür.

Bu tərifləri diqqətlə nəzərdən keçirdikdən sonra belə qənaətə gəlmək olar ki, müəlliflər tərbiyənin ayrı-ayrı əlamət və keyfiyyətlərinə, xüsusiyyət və komponentlərinə müxtəlif cür yanaşsalar da onun məqsədyönlu, planı və mütəşəkkil təsir vasitəsi olduğunu hamısı qəbul etmişlər.

Bütün bu müəlliflərdən fərqli olaraq N.M.Kazımov yazır: "Tarixən də, müasir dövrdə də tərbiyə birmənalı başa düşülməmişdir. Bəziləri pedaqogikanı tərbiyə kimi, tərbiyəni də pedaqogika kimi başa düşmüşlər. Tərbiyənin qanunauyğunluqları və pedaqogikanın qanunauyğunluqları arasında fərq qoymayanlar da var. İnsan şəxsiyyətinə tərbiyəvi təsirlərlə mühim amillərin təsirlərini eyniləşdirənlər də az deyil. Halbıki pedaqoji proses, o cümlədən tərbiyə obyektiv prosesdir, ayrı-ayrı şəxlərdən asılı olmuş; pedaqogika isə elmdir, özü də pedaqoji proses haqqında, həm də tərbiyə haqqında elmdir. İnsana mühit və tərbiyənin təsirlərinin fərqləndirmək gərəkdir. Mühitin təsiri məqsədyönlü deyil, kortəbiidir. Tərbiyənin təsiri isə adətən, məqsədyönlü, planlı və mütəşəkkil olur. Deməli, milli pedaqogikaya görə tərbiyə kateqoriyası ilkin olaraq belə mənalandırılır: davranışla əlaqədar olan mənəvi keyfiyyətlərin adamlarla məqsədyönlü, planlı və mütəşəkkil surətdə formalaşdırılması prosesidir" (Bax: N.Kazımov. Məktəb pedaqogikası, Bakı, Çaşoğlu, 2002, səh.33). Mənim fikrimcə, tərbiyənin bu sonuncu tərifini qəbul etmək daha məğbul sayılmalıdır.Çünki bir kateqoriya olaraq tərbiyənin məqsədi məhz N.Kazımov tərəfindən daha müfəssəl şəkildə müəyyənləşdirilmişdir (səh.5).

Biz də müəllifin fikirləri ilə razılaşmaya bilmərik. Əvvəla, ona görə ki, doğrudan da davranışla əlaqədar olan bütün mənəvi keyfiyyətlər tərbiyə prosesində aşılanır, tənzimlənir və cilalanır. Tərbiyə prosesi o vaxt yaranır ki, uşağın (adamın) davranışındakı xoşagəlməz tərəflər, cəhətlər, əlamətlər, islah olunsun və onun yerinə xoşagələn mənəvi keyfiyyətlər daxil edilsin. Həmin keyfiyyətlərin daxil edildiyi dövrə qədərki dövr özlüyündə qeyri-müəyyən bir prosesdir. Yəni tərbiyə prosesi deyil. Əgər həmin qeyri-müəyyən prosesdə iki şəxs (uşaq, şagird və ya adam) arasında davranışa xələl gətirən hərəkətlər, detallar, hətta kiçik bir nüans varsa bu, tərbiyəsizliyin nəticəsidir. Bu prosesə müdaxilə etməklə davranışdakı həmin xoşagəlməzliklər islah edilib nümunəvi ədəb və əxlaq normaları ilə əvəz olunarsa, bax, bu normalar müsbət keyfiyyətlər hesab olunur ki, bu keyfiyyətlər mənəvi keyfiyyətlər adlanır və bu keyfiyyətlər özündə xoş rəftar, düzlük, doğruçuluq, səliqəlilik, mehribançılıq, səmimilik, ədəblilik, gülərüzlük, dostluq, yoldaşlıq, qardaşlıq, anaya, ataya, qardaşa, bacıya, qohumlara, əzizlərə, ətrafdakılara xoş münasibət bəsləmək, vətənsevərlik, halallıq, insanpərvərlik, mərhəmətlik, əliaçıqlıq, əməksevərlik, zövq almaqlıq və sair bu kimi keyfiyyətləri özündə ehtiva edir. Hər hansı bir şəxsə, tutaq ki, uşağa belə keyfiyyətlərin aşılanması prosesi tərbiyə prosesi olur. Deməli, tərbiyə prosesi davranışla əlaqədar olan bütün mənəvi keyfiyyətlərin hər hansı bir fərdə, şəxsə, adama aşılanması prosesdir, deməklə prof. N.M.Kazımov

tamamilə düzgün mövqe tutmaqla yanaşı bu tərifdə tərbiyənin həm mahiyyətini, həm də əsas məqsədini düzgün müəyyənləşdirə bilmişdir.

N.M.Kazımovun tərbiyə kimi təlim kateqoriyasının mahiyyəti, məzmunu, mərhələləri, təşkilat formaları, üsulları, prinsinləri, təlim zamanı müəllimin emosionallığının təzahür formaları və xüsusiyyətlərinə bağlı apardığıislahatlar xüsusilə təlimin sərhədlərinin düzgün müəyyənləşdirilməsilə bağlı irəli sürdüyü konsepsiyalar pedaqoji elmi formalaşması və zənginləşməsi sahəsində irəliyə atılan ən uğurlu addımlardan biri kimi qiymətləndirilməlidir. N.Kazımova qədər təlimlə bağlı bir sıra müəlliflərin çap olunmuş materialları ilə tanış olduq. Azərbaycan və keçmiş SSRİ məkanında nəşr edilərək tələblərin istifadəsinə verilmiş 50-dən artıq "Redaqogika" dərsliklərini nəzərdən keçirib araşdırdıqdan sonra belə bir qənaətə gəldik ki, bir-iki müəllif istisna edilməklə müəlliflərin böyük əksəriyyətində nəzərə çarpacaq dərəcədə ziddiyyətlər vardır. Təəssüf doğuran səbəb odur ki, müəlliflərin bir qrupu hətta digər müəlliflərin dediklərini təksib edən nəzəri müddəalarla çıxış etməklə kifayətlənməyərək öz fikirlərini hökm şəklində təqdim etməyə çalışırlar. Belə yanaşmalara ən çox Moskvada çap olunmuş "Pedaqogika"larda rast gəlmək mümkündür. Onlardan ikisinə müraciət etsək, apardığımız müqayisələr fikrimizin aydınlaşdırılması üçün kifayət edir. Onlardan biri 1967-ci ildə Moskvada "Prosveşeniye" nəşriyyatı tərəfindən nəşr olunan "Pedaqogika" (müəllifləri: B.P.Yespov, N.İ.Boldirev, K.P.Belski, S.İ.Runarski, M.A.Melnikov, A.N.Alekseev, O.S.Boqdanova, A.A.Qonçarov, A.N.Rik, İ.P.Tukayev, N.S.Likan, T.V.Volinova, V.M.Kaçaşkin, F.N. Qanobalin), digəri isə yenə də Moskvada Rusiya Pedaqoji cəmiyyəti nəşriyyatı tərəfindən çap olunan "Pedaqogika" (müəlliflər: V.V.Krayevski, A.F.Menyayev, P.İ.Pidkasistiy, V.M.Polonskiy, N.E.Surkova) adlı dərsliklərdir.

Birinci dərslikdə oxuyuruq: "Təlim-şagirdlərə məqsədyönlü və sistemli şəkildə verilən bilik, bacarıq və vərdişlərin verilməsi prosesidir" (Bax: "Pedaqogika", Moskva, Prsveşeniyk, səh.6.).

36 ildən sonra nəşr edilmiş "Pedaqogika" dərsliyində isə oxuyuruq: "Təlim öyrədənlərin aktiv şəkildə istiqamətləndirilmiş bilik, bacarıq və vərdişlərin öyrənənlərə elə bir aşılanması prosesidir ki, bu zaman onların əxlaqi keyfiyyətlərinin inkişafı təzərdə tutulur" (Bax: Redaqogika, Moskva,R.P.S.-nin nəşriyyatı, səh.153)

Əgər birinci tərifdə təlim yalnız orta ümümtəhsil məktəblərində şagirdlərə verilən bilik, bacarıq və vərdişlər sistemi kimi nəzərdə tutulursa, ikinci dərslikdə isə təlim demək olar ki, bütün tədris müəssisələrində öyrədənlərin öyrənənlərə aşıladığı bilik, bacarıq və vərdişlərin məcmusu və bu zaman onların əxlaqi keyfiyyətlərinin inkişaf etdirilməsini nəzərdə tutur.

Göründüyü kimi, əgər birinci tərifdə həm tərbiyə, həm təlim, həm də təhsil üçün səciyyəvi olan yalnız bir səhət, yəni bilik, bacarıq və vərdişlərin aşılanması prosesini göz önünə gətirirsə, ikinci tərifin müəllifi birincidən yalnız bircə addım qabağa gedərək təlimin yalnız əxlaqi cəhətdən tərbiyəedici xarakterini də yada salır. Hər iki tərifdə isə təlimin məqsədyönlü, planlı, mütəşəkkil olması, hərtərəfli tərbiyələndirici xarakterə malik olması, verilən bilik, bacarıq, vərdişlərin milli və ümumbəşəri dəyərləri özündə əks etdirməsi, psixoloji imkanların daşıyıcısı kimi çıxış etməsi məsələləri nəzərdən qaçırılmış və beləliklə də təlimin mahiyyəti geniş açıqlanmamış, başqa sözlə desək, onun maketi düzgün qurulmamışdır.

Belə bir tendensiya Azərbaycan Respublikasında da nəşr edilərək tələbələrin istifadəsinə təqdim edilən dərsliklərdə də müşahidə edilir. Respublikamızda "Pedaqogika" adı altında nəşr edilən dərslik və dərs vəsaitlərini nəzərdən keçirərək təlimə birtərəfli yanaşma halları da müşahidə edilir. Onlardan biri neçəsini nəzərdən keçirək:

"Təlim müəlliminin rəhbərliyi altında məqsədə yönəldilmiş, planlı, mütəşəkkil bir surətdə təhsil almaq prosesidir ki, bu prosesdə şagirdlərlə biliklər sistematik şərh edilir, iş qaydaları göstərilir, onların bilik, bacarıq və vərdişləri şüurlu və möhkəm mənimsəməsi, idrak qabiliyyətlərinin inkişaf etdirilməsi məqsədilə



fəaliyyətləri təşkil olunur" (Mehdizadə M. və b."Redaqogika", səh.9).

"Təlim-müəllimin rəhbərliyi və müvafiq vasitələrin köməyilə şagirdlərin həyatı dərk etməsi prosesidir" (Pedaqogikadan mühazirə konspektləri. Bakı, Maarif, 1983, səh. 114).

"Təlim-müəllim və şagirdlərin qarşılıqlı şəkildə məqsədyönlü fəaliyyətidir" (Y.Talıbov, Ə.Ağayev, İ.İsayev, A.Eminov. Pedaqogika. Bakı, Adiloğlu, 2003, səh. 5),

"Təlim-müəllimlə şagirdin arasında elə qarşılıqlı münasibətlər sistemi nəzərdə tutulur ki, bunun nəticəsində şagird müəyyən bilik, bacarıq və vərdişlər sisteminə yiyələnir, onda əxlaq-mənəvi keyfiyyətlər formalaşır" (A.Abbasov, H.Əlizadə. Pedaqogika. Bakı, Renessans, 2000, səh. 6).

"Təlim-müəllimlə şagirdlərin xüsusi təşkil olunmuş prosesdə məqsədli və idarə olunan qarşılıqlı fəaliyyətidir" (Ə.Paşayev, F.Rüstəmov. Pedaqogika, Bakı. Çaşoğlu, 2002, səh.18).

"Təlim-müəllimin rəhbərliyi altında planlı və mütəşəkkil surətdə həyata keçirilən təhsil almaq prosesinə deyilir" (Pedaqogika. ADTRƏN, Bakı, 1964,səh. 6).

Əvvəla, bu təriflərin hamısında təlim müəllimin yalnız ümumtəhsil məktəblərində həyata keçirilən təhsil prosesi ilə məhdudlaşdırılır. İkinci, bircə tərif istisna olmaqla yerdə qalanların heç birində təlim prosesində tərbiyəedici xarakteri nəzərə çatdırılmır. Bütün dərslik müəllifləri şagirdlərə aşılanan biliklərin, bacarıq və vərdişlərin milli və ümumbəşəri dəyərləri özündə əks etdirilməsi düşünmüş və nəhayət onların heç birisi təlim prosesində öyrənənlərin öyrədənlərə qarşılıqlı münasibətdə olması və onların psixoloji səhətdən inkişaf etdirilmələri unudulur. Bütün bunların sahmana salınması sahəsində professor N.M.Kazımovun təlim nəzəriyyəsi ilə bağlı irəli sürdüyü konsepsiyalar çox faydalıdır. Həmin konsepsiyaların bəzi müddəaları ilə tanış olaq:

- Təlim ikitərəfli pedaqoji prosesdir (öyrədənlə öyrənənlər arasında qarşılıqlı fəaliyyətdir);
- öyrədən şəxslər müxtəlif peşə sahibi ola bilər: müəllim, tərbiyəçi, valideyn, usta, müəssisə başçısı və s.;
- öyrədənlərin tərkibi də başqa-başqa olur: şagirdlər, tələbələr, əsgərlər, təkmilləşən müdavimlər və s.;
- öyrədən şəxs təlim zamanı üç istiqamətdə fəaliyyət göstərir: birinci, bilik, bacarıq və vərdişlərin mənimsənilməsini təşkil edir; ikinci, həmin bilik və bacarıqlar vasitəsilə öyrənən şəxslərlə şüurun, psixikanın inkişafına diqqət yetirir; üçüncüsü, zəruri mənəvi keyfiyyətlərin onlara aşılanmasına qaygı göstərir (Bax: Məktəb pedaqogikası, səh. 13-14),

Təlimin mahiyyətini aydınlaşdırmağa xidmət edən bu amillər təlim yuxarıda qeyd etdiyimiz maketi haqqında tam təsəvvür yaradır. Bu maketin isə lakonik ifadəsi təlimin aşağıdakı tədris müəssisələri üçün yozumu və ümumi tərəfində öz əksini tapır:

"Təlim müəllimin məqsədyönlü, planlı və mütəşəkkil rəhbərliyi ilə şagirdlərin sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərə yiyələnmələri və bu zaman onların psixoloji cəhətdən inkişaf etmələri və tərbiyə olunmaları prosesidir" (Məktəb pedaqogikası, səh. 34).

Öyrədənin məqsədyönlü və planlı rəhbərliyi altında milli və ümumbəşəri dəyərlərlə əlaqədar olan biliklərin bacarıq və vərdişlərin öyrənənlər tərəfindən mütəşəkkil mənimsənilməsi və bu zaman onların tərbiyə olunmaları və inkişaf etmələri prosesi təlimdir.

Göründüyü kimi Nurəddin Kazımovun tərbiyə və təlim kateqoriyaları barədə irəli sürdüyü yeni konsepsiyalar elmi pedaqogikanı zənginləşdirilməsi baxımından çox əhəmiyyətlidir.

**Afət Mollayeva**

*P.S. Məqaləni işləyərkən aşağıdakı ədəbiyyatdan istifadə olunmuşdur :*

- *Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı 1998.*
- *N. M. Kazımov, Ə. Ş. Həşimov, Pedaqogika, B. "Maarif" 1996.*
- *N. M. Kazımov, Məktəb pedaqogikası, B., "Çaşıoğlu" 2002.*
- *N. M. Kazımov, Ali məktəb pedaqogikası, B., "Nicat", 1999.*
- *D.Ö.Lordkipanidze, Didaktika.Tbilisi Universitetinin nəşri, 1985.*
- *Ə. Seyidov, "Azərbaycanda pedaqoji fikrin inkişafı tarixi", B, 1987 və s.*